# MİLLİ GENOFONDUMUZ HESAB EDİLƏN "QARABAĞ AT CİNSİ"NİN ETNOQRAFİYASI

**Yasin Gözəlov**

*Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Heyvandarlıq Elmi Tədqiqat İnstitutu, gozelov.yasin@mail.ru*

18 dekabr 2007-ci il tarixdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən təsdiq edilmiş 516-IIIQ №-li "Damazlıq heyvandarlıq haqqında" Azərbaycan Respublikası Qanununun 17-ci Maddəsində Azərbaycan Respublikasında yetişdirilən Qarabağ at cinsi yerli heyvan genofondunun nümunəsi kimi qeyd edilmişdir. Qarabağ at cinsi bizim milli sərvətimizdir. Qarabağ atları Asiya və Qafqazda ən qədim at cinsi hesab edilir. Bu cins xalqın əsrlər boyu apardığı yaradıcılıq işi sayəsində, xalq seleksiyası (seçmə) nəticəsində yaradılmışdır.

Qarabağ at cinsi Azərbaycanın Qarabağ ərazisində yaradılmış və geniş yayılmış dağ-minik at cinsidir. XVII-XVIII əsrlərdə Qarabağ xanlığında bu at cinsi daha da təkmilləşdirilmişdir. Ən yaxşı atlar Şuşa, Ağdam və bu rayonlara yaxın ərazilərdə yayılmışdır.



**Şəkil 1**. Ağdamda Qarabağ at cinsinə baxış zamanı (XVIII əsr)

Eksteryer göstəricilərinə görə Qarabağ atı tipik dağ minik atıdır. Bu atların əsas yeriş forması çaparaq yerişdir, yerişi geniş və cəld, bütün hərəkətləri çevikdir. Qarabağ atı hündür, hərəkəti səlis, bədən quruluşu möhkəmdir. Alın və burun sümükləri yaxşı inkişaf etmişdir. Boynu orta uzunluqda, hətta bir qədər də gödək və hündür duruşludur. Qarabağ atı daha dözümlüdür və yemə qarşı tələbkar deyil. Başları balaca, profilləri düzdür. Arxası və beli düz, döşü, gövdəsi enli, ayaqları qurudur. Dərisi nazik, tükləri yumşaq və parıltılıdır.

Qarabağ atlarının cidov hündürlüyü 150,5 sm, bədənin çəp uzunluğu 148,1 sm, döş qucumu 174 sm və incik qucumu 18,2 sm-dir.

Qarabağ atları yüksək qaçış sürəti ilə seçilir. Rekord sürət Ağdam Atçılıq Zavodunda yetişdirilən Sumqanda adlı at tərəfindən 1600 metr məsafəni 1 dəqiqə 54 saniyəyə (50,52 km/saat), 2400 metr məsafəni isə 2 dəqiqə 52 saniyəyə (50,23 km/saat) qaçmaqla qeydə alınıb. Bu dünya rekordundan (70,76 km/saat) təqribən 20 km/saat azdır. Qarabağ atları rahat və sürətli yerişlərinə görə səciyyələnirlər. Onların yerişi cəld geniş və yaraşıqlıdır. Qarabağ atının yeriş sürəti saatda 7-9 km-ə qədərdir.

Qarabağ atını digər atlardan fərqləndirən əlamətlərdən ən vacibi onun belində xarakterik xəttin olmasıdır. Bu xətt boyundan başlayaraq quyruğun əsasına qədər uzanır. Digər atlarda belə bir nişanə yoxdur.

Orta əsrlər boyu bəslənib-yetişdirilən Qarabağ atı XVIII-XIX əsrlərdə daha geniş ərazini bürümüş, cinsi xeyli yaxşılaşdırılmış və özünün yüksək inkişaf mərhələsinə çatdırılmışdır. Qarabağ xanı İbrahimxəlil xanın 3-4 min cins atı təkcə Azərbaycanda deyil, həm də Türkiyədə məşhur olmuşdur.



**Şəkil 2.** Qarabağ at cinsi

XIX əsrin sonu - XX əsrin əvvəllərində keçirilən beynəlxalq və Ümumrusiya at sərgisi və müsabiqələrində Qarabağ atı yüksək qiymətləndirilmiş və mükafatlara layiq görülmüşdür. 1867-ci ildə Parisdə olan Beynəlxalq at sərgisində "Xan" adlı qızılı kəhər ayğır gümüş medala layiq görülmüşdür.



**Şəkil 3.** Xan ləqəbli Qarabağ at cinsi (1867-ci il, Paris)

Artıq Qarabağ at cinsinin tarixi məkanı olan ərazilərdə bərpa-tikinki işləri həyata keçirilir. Ağdam şəhərinin planı təsdiq edilmişdir. Həmin planda "Ağdam atçılq zavodunun" yenidən tikilməsi də nəzərə alınmışdır. Yaxın gələcəkdə Qarabağ atlarının Ağdamda, Şuşada və yaxın rayonlarda yetişdirilərək yayılması işi həyata keçiriləcəkdir.